

# KÖVRƏK XATİRƏLƏR

***AĞAKİŞİ KAZIMOV***
***xalq artisti, professor***

**Ağcabədidə dolam-dolaşıq yollarla keçib ilk daynacağın qapı nalbənd İmranın qapısının ağzı olurdu.Ondan bir az oyana dəmirçi Bayramın dükanı idi.Bir qədər aralı nalbənd İmranın emalatxanası idi.Ağcabədi bazarında ən çox məşhur olan çayçı Aşur var idi.Bazarda bir dava düşən kimi çayçı Aşur içi isti ləyən suyu gətirib oların üstünə tökərdi.Dava da o saat bitərdi.**

Çayçı Aşur,dəmirçi Bayram,oğlu Xanlar da Ağcabədi bazarının məşhur adamları idi. Biz uşaqlar saatlarla durub nalbənd İmranın atları necə nalladığına tamaşa edərdik.

Qəribədir ki,50 ilə yaxın Ağcəbədi bazarında həm İmranın, həm Bayramın,həm də çayçı Aşurun xüsusi hörməti var idi.Üstündən illər keçməyinə baxmayaraq mən onları indi də hörmətlə xatırlayıram.Çayçı Aşurun dəmlədiyi çayın ətri indiyə qədər burnumdadı.Mən 1945- 55-ci illəri deyirəm.Biz Yevlaxdan gələn yolun kənarında dayanıb əsgərlikdən gələnlərin xəbərini vermək üçün evlərinə qaçardıq.

Qonşuluğumuzda Qonça arvad var idi.Bufetçi işləyərdi.Oğlu Bahadur isə dəlləklik eliyərdi.Onun kiçik çox yaraşıqlı qardaşı var idi.Adı yadımdan çıxıb çox tez oldü.Nə deyirsən de o zamankı qonşumuz Nizaməddin də yadımdan çıxmayıb.Onun başı noxudu keçəl olmagına baxmayaraq çox pis iylənirdi.Bununla belə biz dostluq eliyərdik.

Çayçi Aşur qiyamət kişi idi.Çox məzəli söhbətlər edərdi.Ən maraqlısı Dəmirçi Bayramla oğlu Xanların dəmirləri döyüb relslər düzəltməsi idi.Biz uşaqlar maraqla bu işlərə tamaşa edərdik.Nalbənd İmranın işləri isə daha maraqlı idi. Oğlu atların ayağını qaldırıb bükür,Bayram kişi isə ustalıqla nallıyardı.Nallanan atlar ayaqlarını yerə qoyub çox inamla addımlıyardılar.

Atam məni ticarətçi görmək istiyərdi.Amma mən qətiyyən alış-verişnən maraqlanmazdım.Bütun gecəni kino teatrda işıqları söndürüb yandırmaqla məşğul idim.Qonşuluğumuzda əmi oğlanlarım Tofik,Ələsgərnən İsmayıl bəyin oğlunun velosipedine bir manat verib bir saat gəzərdik.Bir dəfə İsmayil bəyin qapısının ağzında bir nəfərin necə öldüyünü gördüm.Dedilər acınnan olüb.İsmayıl bəy çox təmkinli,nüfuzlu adam idi.Biz uşaqlar onnan qorxardıq,danışmağa cürət eləməzdik.Mən yaşda uşaqlar,istər Yaqub olsun,istər dəyirmançı Şirinin oğlu Mamed(adı Məhəmməd idi) olsun həmişə göy otun üstündə oturub söhbət eləməyi xoşluyardıq.




Adi rayon mərkəzi idi.Amma hər şey bizə çox poetik təsir bağışlayırdı.Dostlarım dəllək Abbasın oğlu İsi ,Molla Məhəmmədin oğlu Xanməmməd,xanəndə Mütəllim Mütəllimovun bacısı oğluTofik həmişə bir yerdə olardıq.Kinoya da bir yerdə gedərdik.

Rayonumuzda iki qoçu oğlan var idi.Dəyirmançı Şirinin oğlu Mamed və birdə mənim şəxsi dostum Yaqub.Onlar bir-biri ilə yola getməzdilər.Gah Mamed deyərdi Yaqubu döyəcəm,gah da Yaqub deyərdi Mamedi döyəcəm.Axır mən onları üzləşdirdim.Rayon mərkəzindəki kiçik parkımızda onlar döyüşdülər,bir-birini əldən saldılar.Axırı belə qərara gəldilər ki,heç kəs heç kəsdən güclü deyil.

Ah allah,o anlar indiyə qədər nə qədər uzaq olsaq da mənə o qədər yaxın və poetik görünür.İndiyə qədər hörmətli kişiləri və uşaqların heç birini unuda bilmirəm.

Burda ən böyük bir səhvi buraxmışam.Bizim sevimli,nümunə saydığım Xəlil müəllimi.Hamı ona böyük hörmət edərdi,hamı özünü ona oxşatmağa çalışardı.Xəlil müəllim həm davranışı,həm dərsdə münasibəti ilə hamının böyük hörmətini qazanmışdı.O,hamımızı sevdiyi kimi bütün şagirdlər də onu sevirdi.Bununla belə Xelil müəllim çox ciddi adam idi.

Bir dəfə bizim sinifin şagirdləri özlərini pis əməlləri ifşa edən adamlara bənzətmişdilər.Bizdə kənddən gələn bir oğlan oxuyurdu.Eşitdik ki o,cavan fizika muəlliminə yaxşı qiymət yazmaq üçün pul verib. Biz tez yığışıb gənc qvardiya kimi həmin adam və müəllim haqqında böyük ifşaedici məktub yazdıq.Məktubu dəllək Abbasın oğlu İsi yazmışdı, mən isə üzünü köçürmüşdüm.Səhər tezdən gəlib məktubu məktəbin giriş qapısının ağzına vurduq və maraqla gözlədik görək bunun sədası necə cıxacaq. Müəllimlər gəldi,məktubu götürdülər,oxudular və verdilər Xəlil müəllimə.Xəlil müəllim dedi ki,bu xətt Ağakişinin xəttidi. Xəbər yayıldı ki,10-cu sinifdən bizi qovurlar.Xəlil müəllim buna etiraz elədi,amma bizi yığdı,o ki var danladı.Sonda dedi bu gənclik səhvidi.Təbii bizi qovmadılar,hamımıza layiq olduğumuz yüksək qiymətli atestatlar verildi.Xəlil müəllimə isə Allah rəhmət eləsin.

**Indi o illər bir lent kimi tez-tez gözümün qabağınnan keçir.Acısı,şirini ilə nə gözəl,unudulmaz günlər idi.**